

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 26 (20.927)

*11 fevral 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da "ВТБ" Bankının prezidenti Andrey Kostini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də əlaqələrin uğurla həyata keçirildiyi vurğulandı, Azərbaycanın müvafiq qurumları ilə "ВТБ" Bankı arasında əməkdaşlığın bu əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Şahbuz rayonunun Sələsüz və Mərəlik kəndləri müasir yaşayış məntəqələrinə çevrilmişdir

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər "Muxtariyyət ili" olan 2014-cü ildə də davam etdirilir, muxtar respublika 90 yaşını yeni quruculuq töhfələri ilə qeyd edir. Şəhər, rayon və kəndlərdə tikilənlər, qurulanlar yaşayış məntəqələrini abadlığa, inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Artıq muxtar respublikanın ən ucqar dağ kəndində belə, əhali rahat yaşayış şəraiti ilə təmin olunmuş, insanlara göstərilən xidmətin səviyyəsi yüksəldilmişdir. Bu istiqamətdə aparılan quruculuq tədbirləri nəticəsində Şahbuz rayonunun Sələsüz və Mərəlik kəndlərində yeni sosial obyektlər istifadəyə verilmişdir.

# Sələsüz kənd tam orta məktəbinin binası yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir





Fevralın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sələsüz kəndinə gəlmiş, məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 234 şagird yerlik məktəb binası 2 mərtəbədən ibarətdir. Yenidənqurma işləri çərçivəsində məktəbin fasadı və interyeri yenilənmiş, tədrisin müasir metodlarla aparılması üçün lazımi infrastruktur yaradılmışdır. Binada 3 elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya laboratoriyası, hərbi kabinə, kompüter otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Ali Məclisin Sədri məktəbdə kitabxana işinin təşkili ilə maraqlanmışdır. Qeyd olunmuşdur ki, məktəbin kitabxana fondunda 2664 latın qrafikalı dərslik və 1564 bədii ədəbiyyat olmaqla, 4228 kitab vardır. Məktəbdə şagirdlərin dərsdənkənar asudə vaxtlarının səmərəli təşkili və mütaliə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilir.

Məktəbin kompüter otağında quraşdırılan



və tədris proqramları ilə təmin olunan kompüterlərin hamısı internetə qoşulmuşdur. Elektron lövhəli siniflərdə isə dərslərin interaktiv tədrisi təmin edilmişdir.

Elektron lövhəli sinifdə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbi ilə canlı videobağlantı qurulmuşdur.

Ali Məclisin Sədri videobağlantı vasitəsilə dərs prosesini izləmiş, bundan sonra da informasiya texnologiyalarının imkanlarından səmərəli istifadə olunması barədə tapşırıqlar vermişdir.

Müxtəliftəyinatlı fənn kabinələrində də tədrisin əyani vasitələrlə aparılması üçün lazımi şərait yaradılmış, kimya-biologiya laboratoriyasında müxtəlif təcrübə cihazları quraşdırılmış, hərbi kabinədə məlumat stendləri asılmışdır.

İdman və bədən tərbiyəsi sağlam gənc nəslin yetişdirilməsində vacib məsələdir. Bu baxımdan məktəb binalarında idman zallarının yaradılmasına xüsusi diqqət yetirilir. Sələsüz kənd tam orta məktəbində də idman zalı yaradılmış, həyətdə açıq idman qurğuları quraşdırılmışdır.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, kənd məktəbində yaradılan şərait təhsil uğurlarının artırılmasına imkan verəcəkdir. Ona görə də pedaqoji kollektiv

*Ardı 2-ci səhifədə*

yaradılan təhsil infrastrukturundan səmərəli istifadə etməli, şagirdlər təhsil almaqla yanaşı, həm də əsl vətəndaş kimi yetişməlidirlər. Qeyd olunmuşdur ki, Sələsüz kənd tam orta məktəbi ötən tədris ilində uğurlu nəticələr qazanmış, məzunlardan 5-i ali məktəblərə qəbul olunmuşdur. Bu da məktəbdə tədrisin və müəllim-şagird münasibətlərinin düzgün qurulmasının nəticəsidir.

Ali Məclisin Sədri gələcəkdə nailiyyətlərin daha da artırılacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Məktəb binasının həyəti də abadlaşdırılmış, işıqlandırma sistemləri qurulmuş, gülkarlıqlar salınmışdır.



# Sələsüzdə yeni kənd mərkəzi tikilmişdir






Fevralın 10-da Sələsüz Kənd Mərkəzinin açılışı olmuşdur.

Tədbirdə Sələsüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vilayət Ələkbərov çıxış edərək demişdir ki, muxtar respublikada aparılan quruculuq işləri nəticəsində Sələsüz kəndi də abad yaşayış məntəqəsinə çevrilmişdir. Kənddə əhali, əsasən, heyvandarlıq və əkinçiliklə məşğul olur. İstehsal olunan məhsullar tələbatı ödəməklə yanaşı, kənd təsərrüfatı məhsullarının satış yarmarkasında da əlverişli qiymətə satılır. Bu da sakinlərin rifahının yüksəlməsinə, kənddə məskunlaşmanın artmasına səbəb olur. İnzibati ərazi dairəsi üzrə nümayəndə yaradılan şəraitə görə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sələsüz kənd inzibati ərazi dairəsinin əhatə etdiyi yaşayış məntəqələrində yeni sosial obyektlərin istifadəyə verildiyini bildirmiş, bu münasibətlə sakinləri və tədbir iştirakçılarını təbrik edərək demişdir: "Aparılan quruculuq işləri Sələsüz və Mərəlik kəndlərini müasirliyə qovuşdurmuş, dövlət qurumlarında və xidmət sahələrində çalışan işçilər üçün lazımi iş şəraiti yaradılmışdır. Eyni zamanda hər iki kənddə sakinlərin problemlərinin vaxtlı-vaxtında həll olunması təmin edilmişdir".

Ali Məclisin Sədri demişdir: "Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Belə ki, kəndlər abadlaşdırılır, əhalinin sosial problemləri həll olunur, güzəştli şərtlərlə kreditlər verilir, heyvandarlıq, meyvəçilik və əkinçilik inkişaf etdirilir, istehsal olunan məhsullar dövlət tərəfindən qəbul edilir və bazarda satılması üçün şərait yaradılır. Bu da ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, qeyri-neft sektorunun inkişafına da təkan verir, iqtisadiyyatın hərtərəfli inkişafına şərait yaradır".



"Hər bir yaşayış məntəqəsinin inkişafı ümumilikdə ölkənin inkişafı deməkdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, yaşayış məntəqələrinin kompleks abadlaşması ölkəmizdə qarşıda duran əsas vəzifələrdəndir. Sələsüz kəndində aparılan quruculuq işləri də bu sahədə görülən işlərin daha bir nümunəsidir. Kənddə dövlət qurumlarının fəaliyyəti üçün lazımi şərait yaradılmış, əhaliyə nümunəvi tibbi xidmətin göstərilməsi üçün həkim ambulatoriyası tikilmiş, məktəb binası müasir tələblər səviyyəsində qurulmuş, xidmət mərkəzi vasitəsilə əhalinin gündəlik ehtiyaclarının ödənilməsi təmin olunmuş, yeni iş yerləri açılmışdır. Kənd qazlaşdırılmış, rabitə və poçt xidmətinin keyfiyyəti artırılmış, fasiləsiz elektrik enerjisinin verilişi təmin olunmuşdur. Bu gün kənd əhalisinin 244-ü dövlət büdcəsindən əməkhaqqı, təqaüd və müavinət formasında vəsait alır. Bir sözlə, Sələsüz müasir Azərbaycan kəndinin tələbləri səviyyəsində qurulmuşdur.

Ali Məclisin Sədri "Muxtariyyət ili"ndə Sələsüz kəndində yeni sosial obyektlərin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirmiş, yaradılan şəraitdən düzgün istifadə ediləcəyinə əminliyini bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 2 mərtəbəli kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və kənd mədəniyyət evinin işçiləri üçün iş otaqları ayrılmışdır. Binadakı 83 yerlik iclas zalında ictimai-mədəni tədbirlərin keçirilməsi üçün şərait vardır.

Kənd kitabxanasına 4938 kitab verilmişdir. Baxış zamanı kitabxana-oxucu münasibətlərinin düzgün qurulması və kitabxanada müxtəlif tədbirlərin, oxucu günlərinin keçirilməsinin vacibliyi vurğulanmışdır.

Ali Məclisin Sədri baytarlıq məntəqəsinə baxmış, kənddə baytarlıq xidmətinin təşkili ilə maraqlanmışdır. Bildirilmişdir ki, məntəqə Sələsüz və Mərəlik kəndlərini əhatə edir. Soyuducu, dezinfeksiya avadanlıqları və lazımi dərmanlarla təminat göstərilən xidmətin səviyyəsini yüksəldəcəkdir. Məntəqənin əməkdaşları mütəmadi olaraq dezinfeksiya işləri aparır, fərdi təsərrüfatlarda cins malqaranın baş sayının artırılmasına diqqət yetirirlər.

Rabitə evində 384 nömrəlik yeni nəsil ATS quraşdırılmış, Sələsüz, Mərəlik və Türkeş kəndlərində abonentlərə göstərilən rabitə xidmətinin səviyyəsi yüksəldilmişdir. Mərkəzdə Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, inzibati ərazi dairəsi üzrə nümayəndəliyin və bələdiyyənin fəaliyyəti də təmin edilmiş, polis sahə məntəqəsi üçün iş otağı ayrılmışdır.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

# Həkim ambulatoriyası yeni binada fəaliyyət göstərəcəkdir



Muxtar respublikada səhiyyə infrastrukturunun müasirləşdirilməsi tibb müəssisələri şəbəkəsinin və strukturunun yenilənməsi ilə xarakterizə olunur. Bu baxımdan əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında kəndlərdə istifadəyə verilən həkim ambulatoriyalarının müstəsna əhəmiyyəti vardır.

Fevralın 10-da Sələsüz kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, ambulatoriyada tibb işçiləri üçün 9 otaq ayrılmışdır. Binada stomatoloq üçün kabinə, baş həkim, aptek, palata, doğuş, peyvənd, qeydiyyat, mama və manipulyasiya otaqları vardır. Otaqlarda tibbi avadanlıqlar quraşdırılmış və lazımi şərait yaradılmışdır. Haliyədə ambulatoriyada 9 tibb işçisi sakinlərə səhiyyə xidməti göstərir.

Həkim Tamleyxa Cəbiyev muxtar respublikada aparılan quruculuq tədbirlərindən səhiyyə sisteminə də pay düşdüyünü bildirmiş, yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ambulatoriyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Muxtar respublikanın kəndlərində səhiyyə ocaqlarının tikilməsi və əhalinin lazımi tibbi xidmətlərlə təmin olunması diqqət mərkəzində saxlanılır. Bu gün Sələsüz kənd həkim ambulatoriyasında yaradılan şərait də burada ilkin tibbi

Ardı 3-cü səhifədə





xidmətin hərtərəfli təşkilinə imkan verəcəkdir. İnsan sağlamlığının qorunmasında səhiyyə maarifi xüsusi yer tutur. Ona görə də kollektiv daim əhali arasında maarifləndirmə işi aparmalı, gigiyenik qaydalara əməl edilməli, hamilə qadınlara patronaj xidmətinin göstərilməsi və uşaqların vaxtlı-vaxtında peyvənd olunması diqqət mərkəzində saxlanılmalıdır”.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində kollektivə uğurlar arzulamışdır.

# Sələsüz kənd xidmət mərkəzinin açılışı olmuşdur

Həmin gün Sələsüz kəndində xidmət mərkəzi də istifadəyə verilmişdir.

Bildirilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat mallarının satıldığı mağaza fəaliyyət göstərir. Yaradılan şərait gündəlik ərzaq və sənaye mallarına olan tələbatın kəndin özündə ödənməsinə imkan verəcəkdir. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri yerli məhsulların satışına üstünlük verilməsi və göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi barədə tapşırıqlar vermişdir.




# Mərəlik kəndində xidmət mərkəzi istifadəyə verilmişdir






Fevralın 10-da Mərəlik kəndində də yeni xidmət mərkəzinin açılışı olmuşdur.

Bildirilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazası vardır. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Sakinlər qeyd etmişlər ki, Sələsüz və Mərəlik kəndlərinin müasir görkəm alması insanların rahatlığının təmin olunması sahəsində görülən işlərin nəticəsidir. Çünki ölkəmizdə həyata keçirilən Heydər Əliyev siyasi xəttinin əsasında da məhz insan amili dayanır. Bu gün şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də müasir binalar, abad yollar istifadəyə verilir, insanların rifah halı yaxşılaşdırılır. Görülən bu işlər sakinlərin torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır.

Ali Məclisin Sədri qeyd etmişdir ki, Sələsüz və Mərəlik kəndlərində yaradılan şərait Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Bu gün muxtar respublikada yaşayış məntəqələrinin inkişafına xüsusi diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində artıq kəndlə şəhər arasındakı fərq aradan qaldırılmışdır. Səfalı havası, gözəl təbiəti və məhsuldar torpaqları olan Sələsüz və Mərəlik kəndlərinin sakinləri qurulanları qorumalı, əkin sahələrini genişləndirməli, muxtar respublikanın inkişafına öz töhfələrini verməlidirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





# Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələr genişlənir



***35 il bundan əvvəl, 1979-cu il fevralın 11-də İran xalqı öz müqəddəratını təyin etmiş, İran İslam Respublikası yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında Milli Bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.***

Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə İran arasında əlaqələr xalqlarımızın mənafeyinə uyğun olaraq genişlənir. Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi İran İslam Respublikasına səfərləri Azərbaycanla İran arasındakı münasibətlərin əsasını qoymuşdur. 1993-cü ildə ulu öndərin ali hakimiyyətə qayıdışından sonra isə Azərbaycan-İran dövlətlərarası münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır.

İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin inkişafına Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin dərinləşməsi də öz töhfəsini verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun İran İslam Respublikasına, eləcə də İran İslam Respublikasının qonşu vilayətlərinə səfərləri, İran İslam Respublikasının yüksək vəzifəli dövlət rəsmilərinin Naxçıvana səfərləri dostluq və əməkdaşlıq münasibətlərini möhkəmləndirən amillərdir. Ali Məclis Sədrinin İran İslam Respublikasının Qərbi və Şərqi Azərbaycan vilayətlərinə səfərləri çərçivəsində iqtisadi və mədəni sahələrdə əməkdaşlıq haqqında memorandumların imzalanması əməkdaşlığın perspektivləri baxımından əhəmiyyətli olmuşdur.

1996-cı ildən ötən müddətdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığa dair 4 saziş, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında iqtisadi və mədəni əməkdaşlığa dair 5 saziş, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ilə isə iqtisadi və mədəni əməkdaşlığa dair 4 saziş imzalanmışdır. Həmçinin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında bu günədək imzalanmış əksər sazişlərdə Naxçıvana aid xüsusi maddələr öz əksini tapmış və yaxud sazişlər birbaşa Naxçıvan Muxtar Respublikasına aid olmuşdur.

2007-ci ildə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış dörd sazişin hamısı – "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su-Elektrik Stansiyalarının Tikintisi barədə Protokol", "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası)-Culfa (İran İslam Respublikası) yeni avtomobil körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası arasında Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilməsi haqqında Memorandum" Naxçıvan Muxtar Respublikasına aid olmuşdur. Bundan başqa, 2010-cu il fevral ayının 17-də Azərbaycan və İran hökumətləri arasında imzalanmış Enerji və Nəqliyyat Sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumunda Naxçıvan Muxtar Respublikasının nəqliyyat və enerji sahəsi ilə bağlı müvafiq maddələr də öz əksini tapmışdır.

İran İslam Respublikası ilə qurulan iqtisadi münasibətlər sahibkarlıq subyektlərinin qarşılıqlı əlaqəsində də özünü göstərməkdədir. Muxtar respublikanın sahibkarları dəvət əsasında İran İslam Respublikasında keçirilən sərgilərdə iştirak edərək istehsal etdikləri məhsulları nümayiş etdirirlər. 2013-cü ilin 27-30 aprel tarixlərində muxtar respublika sahibkarları Tehran şəhərində keçirilən "Birinci İran İslam Respublikası ixracat potensialı" adlı sərgidə iştirak etmişlər.

2004-cü ilin avqust ayında Naxçıvan Muxtar Respublikasının təbii qaza olan tələbatının ödənilməsinə dair Azərbaycanla İran arasında imzalanmış "Təbii qaz mübadiləsi üzrə müqavilə"nin icrası nəticəsində 2005-ci ilin noyabr ayından muxtar respublikaya mübadilə yolu ilə təbii qazın verilməsinə başlanmışdır.

Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının digər bölgələri ilə quru yol nəqliyyatı əlaqəsi hal-hazırda İran ərazisi vasitəsi ilə həyata keçirilir. 2007-ci ilin avqust ayında imzalanmış memoranduma əsasən, həmin ilin noyabr ayından başlayaraq İran ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə müntəzəm avtobus reysləri işləyir. Bağlanmış müqavilələrə əsasən, 2011-ci ilin oktyabr ayından Naxçıvan-Təbriz-Tehran və əks istiqamətdə avtobus marşrutu fəaliyyət göstərir.

Nəqliyyat əlaqələrinin inkişafında Araz çayı üzərində körpülərin tikilməsi də mühüm əhəmiyyətə malikdir. 2007-ci ildə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında beynəlxalq statusa malik Şahtaxtı-Poldəşt körpüsü tikiləræk istifadəyə verilmişdir. Həmçinin Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında imzalanmış müqaviləyə əsasən, Culfa-Culfa yeni avtomobil körpüsü inşa edilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə sərhədində beynəlxalq statusa malik Culfa və Şahtaxtı dövlət sərhəd-buraxılış məntəqələri fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının Culfa Gömrük İdarəsinin və Şahtaxtı Gömrük İdarəsinin sərhəd-keçid kompleksinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi, beynəlxalq standartlara cavab verən avadanlıqlarla təchiz olunması gediş-gəlişi kifayət qədər sadələşdirmişdir.

Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın bölgələri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq da inkişaf edir. Hazırda Naxçıvanda qızıl balıq yetişdirilməsi sahəsində fəaliyyət göstərən sahibkarlar İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətindən olan sahibkarlıq subyektləri ilə əməkdaşlıq edirlər. 2012-ci ilin noyabr və dekabr aylarında Qərbi Azərbaycan Vilayəti Balıqçılıq Baş İdarəsinin nümayəndə heyəti Naxçıvana səfər etmiş, gətirilmiş vətəgə əhəmiyyətli körpə balıqlar muxtar respublikanın su anbarlarına ötürülmüşdür.

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə təhsil sahəsində olan əlaqələrini, əsasən, universitetlərarası əlaqələr təşkil edir. Naxçıvan Dövlət Universiteti İran İslam Respublikasının Tehran və Təbriz universitetləri ilə müxtəlif tarixlərdə imzalanmış müqavilələr əsasında əməkdaşlıq edir. 2012-ci ildə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Pəyame Nur Universitetinin rektorunun başçılıq etdiyi nümayəndə heyəti muxtar respublikada olmuş, Naxçıvan Dövlət Universitetində, Təhsil Nazirliyində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində görüşlər keçirilmişdir.

Tərəflər arasında səhiyyə, mədəniyyət, turizm və idman sahəsində də əməkdaşlıq canlanmışdır. Artıq idmançılarımız İran İslam Respublikasında keçirilən beynəlxalq yarışlarda uğurla çıxış edirlər. İranın Ərdəbil vilayəti ilə də Naxçıvan Muxtar Respublikası arasında əlaqələr inkişaf etməkdədir. 2012-ci ildə Ərdəbil vilayətinin ustandarının Naxçıvana 2 günlük işgüzar səfəri, keçirilən görüşlər və müzakirə olunan məsələlər qarşılıqlı faydalı əməkdaşlığın gələcək perspektivləri baxımından əhəmiyyətli olmuşdur.

Azərbaycan-İran əlaqələri ortaq dəyərlərə və mehriban qonşuluq prinsiplərinə əsaslanır. Bu əlaqələr gələcəkdə daha da inkişaf edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda əməkdaşlığın əməli nəticələri vardır. Ümid edirəm ki, bu əməkdaşlıq daha da güclənəcəkdir".***

# Dövlət qulluqçuları and içiblər



***"Dövlət qulluğu həm şərəfli, həm də çətin peşədir. Xalq özünün güclü dövləti ilə, dövlət isə özünün yetkin məmur kadrları ilə inkişaf edir. Dövlət qulluqçusu peşəsi – məmurluq işi mürəkkəb və spesifik fəaliyyət növüdür. Bu peşənin məsuliyyətini yaxşı dərk etmək lazımdır. Dövlət qulluqçusundan işə daim ciddi, məsuliyyətlə yanaşmaq, səriştə, peşəkarlıq, xüsusi bacarıq tələb olunur".***

Bu fikirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən dövlət qulluqçularının andiçmə mərasimində səsləndirilib.

Komissiyada keçirilən müsabiqəni uğurla başa vurmuş və müvafiq dövlət orqanlarında işə başlamış 33 nəfərin and içdiyi mərasimdə komissiyanın sədri Etibar Musayev dövlət qulluqçularını təbrik edərək bildirib ki, müasir dövrdə kadrlarla işin yeni nəzəri-hüquqi bazasını yaratmaq məqsədilə ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında bir sıra tədbirlər həyata keçirilib. Bu gün muxtar respublikada dövlət qulluqçularına, məsul kadrlara yanaşmada əsas meyar onların dövlətə sədaqəti, peşəkarlığı, səriştəliliyi, mənəvi-əxlaqi keyfiyyətləridir. Dövlət qulluğunda çalışmaq bir çox parametrlər üzrə – mənəvi, mədəni, əxlaqi baxımdan dövləti, xalqı təmsil etmək və cəmiyyətin, insanların qulluğunda durmaq deməkdir. Təbii ki, bütün digər sahələrdə olduğu kimi, dövlət qulluğunun da öz prinsipləri mövcuddur. Bunlardan ən başlıcası qanunçuluğa riayətdir. Yəni öz hərəkətlərinin qanuniliyi üçün cavabdeh olan dövlət qulluqçusu vəzifə borcunu yerinə yetirərkən yalnız Konstitusiyanı, qanunları və onlara müvafiq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tutmalıdır.

Sonra komissiyanın əməkdaşı Zaman Bağırov yeni and içən dövlət qulluqçularının "Muxtariyyət ili"ndə fəaliyyətə başlamasının əlamətdar bir hadisə olduğunu bildirib, Naxçıvanın muxtariyyəti ilə bağlı məruzə edib.

✍ **Səbuhi HÜSEYNOV**

***Fevralın 8-də Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində 2013-cü ilin yekunları ilə bağlı kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını vergilər naziri Əli Mahmudov açaraq məruzə ilə çıxış etmişdir.***

# Kollegiya iclası ötən ilin yekunlarına həsr olunmuşdu



Bildirilmişdir ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyən olunmuş proqnoza 110 faiz əməl edilmişdir. Muxtar respublika üzrə daxil olmuş vəsaitlərin 39,5 faizi dövlət sektorunun, 60,5 faizi özəl sektorun payına düşür. Bu da onu göstərir ki, 2012-ci illə müqayisədə dövlət sektoru üzrə 3 milyon 692 min 600 manat, özəl sektor üzrə 6 milyon 278 min 500 manat artıq vəsait toplanmışdır. İqtisadiyyatın dayanıqlı inkişafında mühüm rol oynayan özəl sektorun çoxşaxəli inkişafının təmin olunması məqsədilə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi ixrac potensialının getdikcə artırılması, yeni iş yerlərinin açılması və yüksək iqtisadi nəticələr əldə edilməsi ilə nəticələnmişdir. Rayonlarda kiçik və orta sahibkarlığın fəaliyyətinin güclənməsi vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Buna görədir ki, özəl sektordan vergi daxilolmalarının ümumi vergi daxilolmalarında xüsusi çəkisi 60,5 faizədək yüksəlmişdir.

Qeyd olunmuşdur ki, aidiyyəti orqanlarla birlikdə muxtar respublikanın ticarət obyektlərində alğı-satqı əməliyyatlarının digər valyutalarla aparılmasının qarşısının alınması, Azərbaycan manatının əsas tədavül vasitəsi olmasına nəzarətin artırılması, quraşdırılan POS-terminallardan səmərəli istifadənin təmin edilməsi üçün əhali və sahibkarlıq subyektləri arasında izahat işlərinin aparılması gücləndirilmişdir. Bununla əlaqədar nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində muxtar respublika üzrə 1 yanvar 2014-cü il tarixə 248 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılmışdır.

Vergitutma bazasının genişləndirilməsi və vergidənyayınma risklərinin azaldılması sahəsində görülən tədbirlər nəticəsində öz əmlaklarını icarəyə verərək gəlir əldə edən 2312 fiziki şəxs tərəfindən 46 min 697 manat vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

✍ **Səbuhi HƏSƏNOV**

### İtmişdir

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 99, mənzil 10-da yaşayan Əliyeva Gültəkin Yunis qızının adına olan 12615 inventar nömrəli texniki pasport və 13/833 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Ə.Naxçıvani küçəsi, bina 4, mənzil 24-də yaşayan Bayramova Vəfa Mənsur qızının adına olan 12905 inventar nömrəli texniki pasport və 104011000157-051170-093602 reyestr nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kənd sakini Baxşızadə İsa Safil oğlunun adına olan Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş MH-0001726 seriya nömrəli – 0,11 hektar həyətyanı torpaq sahəsinin çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Məhərrəmova Əfruz Vəli qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 155